*Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2008-ci il 30 dekabr tarixli 31/141-1 saylı Qərarı ilə təsdiq edilmişdir.*

**Referendum üzrə təşviqat qruplarının yaradılması məqsədilə referendum üzrə təşəbbüs qruplarının formalaşdırılması haqqında**

# T Ə L İ M A T

Referendum üzrə təşviqat qrupunun yaradılması seçki qanunvericiliyində və bu Təlimatda nəzərdə tutulmuş qaydada tənzimlənir.

Azərbaycan Respublikasının Seçki Məcəlləsində nəzərdə tutulmuş sayda aktiv seçki hüququna malik olan Azərbaycan Respublikasının vətəndaşları referendum üzrə təşviqat qrupu yarada bilərlər. Referendum üzrə təşviqat qrupunu yaratmaq üçün ilkin olaraq referendum üzrə təşəbbüs qrupunun (bundan sonra – təşəbbüs qrupu) yaradılması zəruridir.

## 1. Təşəbbüs qrupunun yaradılması qaydası

1.1. Təşəbbüs qrupunun yaradılması seçki qanunvericiliyində nəzərdə tutulmuş sayda (500-dən çox, 2000-dən az və ya 2000-dən çox) seçicilərin iclasında bilavasitə və ya həmin saydan az olmayan seçicilərin müəyyən etdikləri nümayəndələrin iclasında mümkündür.

1.2. Seçki hüququ olan hər bir vətəndaş, yaxud vətəndaşlar referendum üzrə təşəbbüs qrupunun yaradılması üçün öz nümayəndələrini müəyyən etməkdən ötrü 50 nəfərdən az olmayan sayda seçicilərdən ibarət ilkin təşəbbüs qrupu yarada bilərlər. Nümayəndələrin sayı iştirakçıların hər 10 nəfərinə 1 nəfər olmaqla müəyyənləşdirilir. Hər bir halda nümayəndə müəyyən etmək üçün yaradılmış ilkin təşəbbüs qruplarında olan seçicilərin ümumi sayı təşəbbüs qrupu yaratmaq üçün bu Təlimatın 1.1-ci bəndində nəzərdə tutulmuş müvafiq saylardan az olmamalıdır. Bunun üçün onlar öz yığıncağını keçirməlidirlər.

1.3. Təşəbbüs qrupu üzvlərinin müxtəlif ərazi vahidlərində yaşamaları faktı onların təşəbbüs qrupunun üzvü olmasına maneə ola bilməz. Təşəbbüs qrupu yaratmaq istəyən seçicilər bələdiyyə qurumunun rəhbərliyinə, ərazi üzrə icra hakimiyyətinin yerli nümayəndəsinə və ya buna imkanı olan digər subyektə yığıncaq keçirmək üçün yer ayrılması barədə yazılı müraciət edə bilərlər. Həmçinin nümayəndələrin müəyyən olunması üçün seçicilərin təşəbbüs qrupunun yığıncağı seçicilərin yaşayış yeri üzrə, icra və bələdiyyə qurumlarının, o cümlədən digər hüquqi şəxslərin ərazi və binalarında keçirilə bilər. Müvafiq yer ayrıldıqdan sonra nümayəndələr müəyyən etməklə təşəbbüs qrupu yaratmaq istəyən seçicilərə yığıncağın keçirilməsi üçün ayrılmış yer və vaxt barədə məlumat verilir.

1.4. Yığıncaqda aşağıdakı məsələlər müzakirə olunur:

1.4.1. ilkin təşəbbüs qrupunun yaradılması;

1.4.2. təşəbbüs qruplarında təmsil olunmaq üçün nümayəndələrin müəyyən edilməsi.

1.5. Yığıncaqda müzakirə edilmiş məsələ barədə qərar qəbul olunur və yığıncağın protokolu tərtib edilir. Protokolu iclasın sədri və katibi imzalayır. İclasın protokolunun yuxarıda göstərilən qurumların, o cümlədən iclasın keçirildiyi yerin məxsus olduğu hüquqi şəxslərin möhürü ilə təsdiq edilməsi də mümkündür.

1.6. Təşəbbüs qrupunun təşəbbüsçüləri (nümayəndələr və ya bu Təlimatın 1.1-ci bəndində nəzərdə tutulmuş sayda seçicilər bilavasitə) tələb olunan sənədləri müvafiq seçki komissiyasına təqdim etmək üçün yığıncaq keçirməlidirlər. Bunun üçün bu Təlimatın 1.2-ci bəndində nəzərdə tutulmuş qaydalar əsas götürülür.

1.7. Yığıncaqda aşağıdakı məsələlər müzakirə olunur:

1.7.1. eyni adlı referendum üzrə təşviqat qrupunun yaradılması məqsədilə referendum üzrə təşəbbüs qrupunun formalaşdırılması və adlandırılması;

1.7.2. təşəbbüs qrupunun səlahiyyətli və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin təyin edilməsi;

**Qeyd:** *Referendum üzrə təşviqat qrupu qeydə alındıqdan sonra təşəbbüs qrupunun səlahiyyətli və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri referendum üzrə təşviqat qrupunun qərarına əsasən həmin qrupun səlahiyyətli və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri kimi öz səlahiyyətlərini saxlaya bilərlər.*

1.7.3. təşəbbüs qrupunun səlahiyyətli nümayəndəsinə (nümayəndələrinə) digər səlahiyyətli nümayəndələrə təşəbbüs qrupu adından notariat qaydasında təsdiq edilmiş vəkalətnaməni imzalamaq hüququnun verilməsi;

1.7.4. təşəbbüs qrupunun yaradılması barədə bildirişlə müvafiq seçki komissiyasına müraciət edilməsi.

1.8. Yığıncaqda müzakirə edilmiş hər bir məsələ barədə qərar qəbul olunur və yığıncağın protokolu tərtib edilir. Protokolu iclasın sədri və katibi imzalayır. İclasın protokolunun həmin qurumların, o cümlədən iclasın keçirildiyi yerin məxsus olduğu hüquqi şəxslərin möhürü ilə təsdiq edilməsi də mümkündür.

## 2. Təşəbbüs qrupu tərəfindən müvafiq seçki komissiyasına təqdim edilən sənədlər

2.1. Mərkəzi Seçki Komissiyasına sayı 2000-dən az olmayan seçicilərin təşəbbüs qrupu tərəfindən:

2.1.1. təşviqat qrupunun yaradılmasının təşəbbüs edilməsinə dair bildiriş (Təlimata 3 saylı əlavə);

2.1.2. təşəbbüs qrupunun səlahiyyətli və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin siyahısı (Təlimata 4 və 4 "a" saylı əlavə);

2.1.3. təşəbbüs qrupu iclasının protokolu (Təlimata 2 saylı əlavə);

2.1.4. referendum üzrə ilkin təşəbbüs qrupunun yaradılması və referendum üzrə təşəbbüs qrupu nümayəndələrinin müəyyən edilməsi üçün keçirilən yığıncaqların protokolları (Təlimata 1 saylı əlavə) (təşəbbüs qrupu nümayəndələr tərəfindən yaradılmışdırsa).

2.2. Müvafiq dairə seçki komissiyasına sayı 500-dən çox, 2.000-dən az olan seçicilərin təşəbbüs qrupu tərəfindən:

2.2.1. təşviqat qrupunun yaradılmasının təşəbbüs edilməsinə dair bildiriş (Təlimata 3 saylı əlavə);

2.2.2. təşəbbüs qrupunun səlahiyyətli və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin siyahısı (Təlimata 4 və 4 ”a” saylı əlavələr);

2.2.3. təşəbbüs qrupu iclasının protokolu (Təlimata 2 saylı əlavə);

2.2.4. referendum üzrə ilkin təşəbbüs qrupunun yaradılması və referendum üzrə təşəbbüs qrupu nümayəndələrinin müəyyən edilməsi üçün keçirilən yığıncaqların protokolları (Təlimata 1 saylı əlavə) (təşəbbüs qrupu nümayəndələr tərəfindən yaradılmışdırsa).

2.3. Müvafiq seçki komissiyası bildirişin alınması barədə təşəbbüsçülərə 5 gün müddətində yazılı məlumat verməlidir (Təlimata 5 saylı əlavə).

*Təlimata 1 saylı əlavə*

**Referendum üzrə ilkin təşəbbüs qrupunun yaradılması və referendum üzrə təşəbbüs qrupunda təmsil olunmaq üçün nümayəndələrin müəyyən edilməsi barədə yığıncağın**

**P R O T O K O L U**

______________________________ "___"___________ 20__ il.

*(yığıncağın keçirildiyi yer – rayon, şəhər, şəhərdə rayon, qəsəbə, kənd)*

Yığıncaqda iştirak edirlər: ___________ nəfər
*(rəqəmlə)*

Yığıncağın sədri və katibinin seçilməsi məsələsinə baxılmış, yığıncağın sədri __________________________, yığıncağın katibi _______________________
*(soyadı, adı, atasının adı)* *(soyadı, adı, atasının adı)*
seçilmiş, gündəlik təsdiq edilmişdir.

**Gündəlik:**

1. Referendum üzrə ilkin təşəbbüs qrupunun yaradılması.
2. Təşəbbüs qruplarında təmsil olunmaq üçün nümayəndələrin müəyyən edilməsi (10 nəfər iclas iştirakçısına 1 nəfər nümayəndə təyin edilməklə).

Yığıncağın sədri gündəlikdə olan məsələlər barədə yığıncaq iştirakçılarını məlumatlandırır, bu məsələlər üzrə çıxış edənlərə söz verir.

**Çıxış etdilər:**

1. ______________________________________________________________
*(çıxış edənin soyadı, adı, atasının adı və çıxışın qisa məzmunu)*
________________________________________________________________

2. ______________________________________________________________
*(çıxış edənin soyadı, adı, atasının adı və çıxışın qisa məzmunu)*
________________________________________________________________

3. ______________________________________________________________
*(çıxış edənin soyadı, adı, atasının adı və çıxışın qisa məzmunu)*
________________________________________________________________

**Səsvermənin nəticəsi:**

Lehinə ____________ __________________
*(rəqəmlə)* *(sözlə)*

əleyhinə ____________ __________________
*(rəqəmlə)* *(sözlə)*

bitərəf ____________ __________________
(rəqəmlə) (sözlə)

**Qərara alındı:**

1. Aşağıdakı tərkibdə referendum üzrə ilkin təşəbbüs qrupu yaradılsın:

| Sıra sayı | Təşəbbüsçünün soyadı, adı, atasının adı | Doğum tarixi | Yaşayış yerinin ünvanı | Şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriya və nömrəsi | İmza | Tarix |
|---|---|---|---|---|---|---|
| 1 | | | | | | |
| 2 | | | | | | |
| 3 | | | | | | |
| ... | | | | | | |

2. ____________________________ referendum üzrə təşəbbüs qrupunda
(təşəbbüs qrupunun adı)
təmsil olunmaq üçün aşağıdakı tərkibdə nümayəndələr seçilsin:

| Sıra sayı | Nümayəndənin soyadı, adı, atasının adı | Doğum tarixi | Yaşayış yerinin ünvanı | Şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriya və nömrəsi | Əsas iş və ya xidmət yeri, tutduğu vəzifə (bu olmadıqda – fəaliyyət növü) | Telefon №-si |
|---|---|---|---|---|---|---|
| 1 | | | | | | |
| 2 | | | | | | |
| 3 | | | | | | |
| ... | | | | | | |

**Yığıncağın sədri** ________________ ________________________
(imza) (soyadı, adı, atasının adı)

**Yığıncağın katibi** ________________ ________________________
(imza) (soyadı, adı, atasının adı)

___________

**Qeyd:** *referendum üzrə təşəbbüs qrupunun yığıncağı idarədə, təşkilatda, müəssisədə keçirilirsə, yığıncağın protokolunun idarənin, təşkilatın, müəssisənin möhüründən istifadə etməklə, yığıncaq yaşayış yeri üzrə keçirilirsə, yığıncağın protokolunun icra nümayəndəliyinin, mənzil istismar sahəsinin, yaxud müvafiq bələdiyyə qurumunun möhüründən istifadə etməklə təsdiq olunması da mümkündür.*

*Təlimata 2 saylı əlavə*

**Referendum üzrə təşəbbüs qrupunun yaradılması barədə yığıncağın**

**P R O T O K O L U**

___________________________ "_____"____________20__ il.
*(yığıncağın keçirildiyi yer – rayon, şəhər, şəhərdə rayon, qəsəbə, kənd)*

Yığıncaqda iştirak edirlər: ___________ nəfər
*(rəqəmlə)*

Yığıncağın sədri və katibinin seçilməsi məsələsinə baxılmış, yığıncağın sədri ___________________________, yığıncağın katibi ___________________
*(soyadı, adı, atasının adı)* *(soyadı, adı, atasının adı)*

seçilmiş, gündəlik təsdiq edilmişdir.

**Gündəlik:**

1. Eyni adlı referendum üzrə təşviqat qrupunun yaradılması məqsədilə referendum üzrə təşəbbüs qrupunun formalaşdırılması və adlandırılması.
2. Təşəbbüs qrupunun səlahiyyətli və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin təyin edilməsi.
3. Təşəbbüs qrupunun səlahiyyətli nümayəndəsinə (nümayəndələrinə) digər səlahiyyətli nümayəndələrə təşəbbüs qrupu adından notariat qaydasında təsdiq edilmiş vəkalətnaməni imzalamaq hüququnun verilməsi.
4. Təşəbbüs qrupunun yaradılması barədə bildirişlə müvafiq seçki komissiyasına müraciət edilməsi.

Yığıncağın sədri gündəlikdə olan məsələlər barədə yığıncaq iştirakçılarını məlumatlandırır, bu məsələlər üzrə çıxış edənlərə söz verir.

**Çıxış etdilər:**

1. ________________________________________________________________
*(çıxış edənin soyadı, adı, atasının adı və çıxışın qısa məzmunu)*

___________________________________________________________________

2. ________________________________________________________________
*(çıxış edənin soyadı, adı, atasının adı və çıxışın qısa məzmunu)*

___________________________________________________________________

3. ________________________________________________________________
*(çıxış edənin soyadı, adı, atasının adı və çıxışın qısa məzmunu)*

___________________________________________________________________

**Səsvermənin nəticəsi:**

Lehinə ______________ (rəqəmlə) ____________________ (sözlə)

əleyhinə ______________ (rəqəmlə) ____________________ (sözlə)

bitərəf ______________ (rəqəmlə) ____________________ (sözlə)

**Qərara alındı:**

1. Aşağıdakı tərkibdə referendum üzrə təşəbbüs qrupu yaradılsın və həmin qrupa ________________________________________________ ad verilsin:

| Sıra sayı | Təşəbbüsçünün soyadı, adı, atasının adı | Doğum tarixi | Yaşayış yerinin ünvanı | Şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriya və nömrəsi | İmza | Tarix |
|---|---|---|---|---|---|---|
| 1 | | | | | | |
| 2 | | | | | | |
| 3 | | | | | | |
| ... | | | | | | |

2. Referendum üzrə təşəbbüs qrupunun aşağıdakı tərkibdə səlahiyyətli nümayəndələri təyin edilsin:

| Sıra sayı | Səlahiyyətli nümayəndənin soyadı, adı, atasının adı | Doğum tarixi | Yaşayış yerinin ünvanı | Şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriya və nömrəsi | Əsas iş və ya xidmət yeri, tutduğu vəzifə (bu olmadıqda – fəaliyyət növü) | Telefon №-si |
|---|---|---|---|---|---|---|
| 1 | | | | | | |
| 2 | | | | | | |
| 3 | | | | | | |
| ... | | | | | | |

3. Referendum üzrə təşəbbüs qrupunun aşağıdakı tərkibdə maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri təyin edilsin:

| Sıra sayı | Səlahiyyətli nümayəndənin soyadı, adı, atasının adı | Doğum tarixi | Yaşayış yerinin ünvanı | Şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriya və nömrəsi | Əsas iş və ya xidmət yeri, tutduğu vəzifə (bu olmadıqda – fəaliyyət növü) | Telefon №-si |
|---|---|---|---|---|---|---|
| 1 | | | | | | |
| 2 | | | | | | |
| 3 | | | | | | |
| ... | | | | | | |

4. Aşağıda göstərilən təşəbbüs qrupunun səlahiyyətli nümayəndəsinə (nümayəndələrinə) digər səlahiyyətli nümayəndələrə təşəbbüs qrupu adından notariat qaydasında təsdiq edilmiş vəkalətnaməni imzalamaq hüququ verilsin:

| Sıra sayı | Səlahiyyətli nümayəndənin soyadı, adı, atasının adı | Doğum tarixi | Yaşayış yerinin ünvanı | Şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriya və nömrəsi | Əsas iş və ya xidmət yeri, tutduğu vəzifə (bu olmadıqda – fəaliyyət növü) | Telefon №-si |
|---|---|---|---|---|---|---|
| 1 | | | | | | |
| | | | | | | |
| | | | | | | |

5. Təşəbbüs qrupunun yaradılması barədə ______________________________
*(seçki komissiyasının adı)*
bildirişlə müraciət edilsin.

**Yığıncağın sədri** _______________ ________________________
*(imza)* *(soyadı, adı, atasının adı)*

**Yığıncağın katibi** _______________ ________________________
*(imza)* *(soyadı, adı, atasının adı)*

**Qeyd:** *referendum üzrə təşəbbüs qrupunun yığıncağı idarədə, təşkilatda, müəssisədə keçirilirsə, yığıncağın protokolunun idarənin, təşkilatın, müəssisənin möhüründən istifadə etməklə, yığıncaq yaşayış yeri üzrə keçirilirsə, yığıncağın protokolunun icra nümayəndəliyinin, mənzil istismar sahəsinin, yaxud müvafiq bələdiyyə qurumunun möhüründən istifadə etməklə təsdiq olunması da mümkündür.*

*Təlimata 3 saylı əlavə*

_________________________________________
*(seçki komissiyasının adı)*

**Referendum üzrə təşviqat qrupunun yaradılmasına təşəbbüs edilməsi haqqında**

**B İ L D İ R İ Ş**

Biz, __________________________________________ referendum üzrə
*(referendum üzrə təşəbbüs qrupunun adı)*
təşəbbüs qrupunun aşağıda göstərilən üzvləri

____ ______________ 20 ___ ilə təyin olunmuş referendumda Azərbaycan
*(referendumun keçiriləcəyi tarix)*
Respublikası Seçki Məcəlləsinin 63-cü maddəsinə uyğun olaraq eyni adlı referendum üzrə təşviqat qrupunun yaradılmasına təşəbbüs edirik:

| Sıra sayı | Soyadı, adı, atasının adı | Doğum tarixi | Yaşayış yerinin ünvanı | Şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi | Əsas iş və ya xidmət yeri, tutduğu vəzifə (bu olmadıqda – fəaliyyət növü) |
|---|---|---|---|---|---|
| 1 | | | | | |
| 2 | | | | | |
| ... | | | | | |
| | | | | | |

**Səlahiyyətli nümayəndə** ___________________________ _______________
*(soyadı, adı, atasının adı)* *(imza)*

**Qeyd:** *bildirişə səlahiyyətli nümayəndələrin siyahısı və təşəbbüs qrupunun formalaşdırılması ilə bağlı keçirilmiş iclasların protokolları əlavə olunur.*

"_____"______________20__ il.
*(bildirişin verilmə tarixi)*

*Təlimata 4 saylı əlavə*

________________________________________
*(seçki komissiyasının adı)*

__________________________________________________
*(referendum üzrə təşəbbüs qrupunun adı)*

**referendum üzrə təşəbbüs qrupunun səlahiyyətli nümayəndələrinin**

**S İ Y A H I S I**

| Sıra sayı | Soyadı, adı, atasının adı | Doğulduğu il (18 yaşlı şəxsin həm də doğulduğu ay və gün) | Şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi | Yaşayış yerinin ünvanı | Əsas iş və ya xidmət yeri, tutduğu vəzifə (bu olmadıqda – fəaliyyət növü) | Telefon №-si |
|---|---|---|---|---|---|---|
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |

**Səlahiyyətli nümayəndə** ____________ ____________________________________
*(imza)* *(inisialı və soyadı)*

*Təlimata 4 ”a” saylı əlavə*

_________________________________________
*(seçki komissiyasının adı)*

_________________________________________
*(referendum üzrə təşəbbüs qrupunun adı)*

**referendum üzrə təşəbbüs qrupunun maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin**

**S İ Y A H I S I**

| Sıra sayı | Soyadı, adı, atasının adı | Doğulduğu il (18 yaşlı şəxsin həm də doğulduğu ay və gün) | Şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi | Yaşayış yerinin ünvanı | Əsas iş və ya xidmət yeri, tutduğu vəzifə (bu olmadıqda – fəaliyyət növü) | Telefon №-si |
|---|---|---|---|---|---|---|
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |

**Səlahiyyətli nümayəndə** ____________ ______________________________
*(imza)* *(inisialı və soyadı)*

*Təlimata 5 saylı əlavə*

**A R A Y I Ş**

"___"__________20__ il.

Saat ______

Verilir____________________________________________________________
*(referendum üzrə təşəbbüs qrupunun səlahiyyətli nümayəndəsinin soyadı, adı, atasının adı)*

ondan ötrü ki, o, həqiqətən _____________________________________________
*(referendum üzrə təşəbbüs qrupunun adı)*

referendum üzrə təşəbbüs qrupunun yaradılması barədə aşağıdakı sənədləri ___________________________________ təqdim etmişdir:
*(seçki komissiyasının adı)*

1.

2.

3.

4.

**Seçki komissiyasının nümayəndəsi** ____________ _________________________
*(imza)* *(soyadı, adı, atasının adı)*

M.Y.